https://doi.org/10.59849/3006-2403.2023.9.93
UOT 82-1. 512. 162

*Qərib Qasım oğlu Mehdiyev*
*Azərbaycan Yazıçılar Birliyinin üzvü*

# ƏLİM ÇATAN ÜNÜM YETƏN NİZAMİ

*Məqalədə millətləri və xalqları fərqləndirməyən dahi şairimiz Nizami Gəncəvi haqqında maraqlı faktlara toxunulmuşdur. Bütün əsrlərin şairi olan Nizami Gəncəvi məqbərəsinin və onun ətrafındakı ərazilərin yenidən qurulması, yeni layihənin hazırlanması, böyük tədbirlərin nəzərdə tutulması və şairin adına layiq məqbərənin inşa edilməsi barədə mövzulara toxunulub. Məqbərənin yerinin dəyişdirilməsi kimi mübahisəli məsələlər də burada yer alıb. Burada faktlar "müəllifin düşüncəsi" və "memarın sözü" formasında qarşı qarşıya gətirilib.*

*Açar sözlər:* Nizami Gəncəvi, dahi şair, sənət, Xəmsə, məqbərə

Göstərdi mərdi mənə,
"Xəmsə"si zərdi mənə;
Nizamini səslədim,
Dünya hay verdi mənə.

Şıx düzü-düzən düzüm,
Geyinib bəzən, düzüm;
Əl tutub Nizamiylə
Dünyanı gəzən düzüm.

Bəzəmişəm təzəmi,
Doldurmuşam kuzəmi;
Ünvanımı soruşsan,
Gəncə, Çinar, Nizami.

Nizamini səslədim.

Dünyada gur şəlaləli nəhəng çaylar var. Gecə-gündüz yol gedən bu çaylar olsa-olsa bir neçə ölkənin ərazisindən keçə bilir.Dünyada bütün fəsillərdə başı qarlı, örtülü, silsilə dağlar var.Onlar yalnız bir neçə ölkənin torpağında "ayaqüstə" dura bilir.

Dünyada geniş səhralar, ucu-bucağı görünməyən düzənliklər var. İnsan oğlu bu böyüklüyün, bu sonsuzluğun sonunun canlı şahididir. Bu genişlik, bu "səxavət" bir neçə ölkəni əhatə etdikdən sonra tükənir. Dünyada ağ yalmalı dalğaları bir-birini qovmaqdan yorulmayan dərin dənizlər var. Onlar yalnız bir neçə ölkənin sahillərini oxşaya bilir. Dünyada dərin dənizlərdən, geniş səhralardan, uca dağlardan, nəhəng çaylardan qat-qat möhtəşəm olan əbədi Nizami sənəti var. Düzlüyü, ədaləti, kamalı, əməyi, xeyri amalına bayraq seçən Nizami sənəti bütün dünyanı özündə birləşdirir. Nəsillərin dərs aldığı Nizami "Xəmsə"si –"Beşliy"i beş iqlim qurşağı kimi səkkiz əsr yarımdır ki, dünyanı qoynuna alıbdır. Yurd ünvanı özü kimi sadə, özü kimi əzəmətlidir.

Bəzəmişəm təzəmi,
Doldurmuşam kuzəmi.
Ünvanımı soruşsan,
Gəncə, Çinar, Nizami.

Nizami şöhrətinin ünvanı, onu soruşanları, səsləyənləri heyrətdə buraxıb:

Göstərdi mərdi mənə,
“Xəmsə”si zərdi mənə.
Nizamini səslədim,
Dünya da hay verdi mənə.

Nizami sənətinin möcüzəsini, bəşərə xidmət etalonunu ancaq Günəşlə müqayisə etmək mümkündür. Başdan-başa humanizmlə yoğrulmuş bu sənətin ədaləti də, nəsihəti də, məhəbbəti də dünyəvidir. O, istinad nöqtəsini düz seçib.

El gözündə Nizami ucalıbdır düzlükdən,
İlhamına, qəlbinə güc alıbdır düzlükdən.

Əsrlərin araya yığılması onu bizdən uzaqlaşdıra bilmir. Məhəllilik və millilik insanın tanınma nişanıdır. Tanınma nişanı aparıcı ideologiyaya çevriləndə fəsadlar törəyir. Xəyali fikirdə və real həyatda imperiyaçılıq, hegemonçuluq başlayır. Nizami sənəti hər cür xırdaçılıqdan və hegemonçuluqdan uzaqdır. “Bacarsan, hamının yükünü sən çək; İnsana ən böyük şərəfdir əmək”. “Dünyaya fateh olmaz zülmkarlıq, rəzalət; Yer üzünün fatehi ədalətdir, ədalət”, “Hökmdar olmusan ki, yetişəsən haraya” deyən şair ədalətin, humanizmin zirvəsinə qalxır.

Nizami bütün əsrlər üçün müasir şairdir.O, sanki aşağıdakı misraları 800 il əvvəl deyil, lap bu günlərdə yazıb.

Doğru yazmağa var madam ki, imkan,
Neçin gəlməlidir ortaya yalan!
Sözün qiymətini saldı yalanlar,
Doğrunu danışan hörmətli olar.

Və ya

Döyüşdən yaxşıdır barışıq, şəfqət,
Biri dərd gətirər, biri səadət.

Və ya

Ayıqlıq nə böyük dövlətmiş, bilsən!

Şöhrətli, səxavətli, ürəyiaçıq adamın həmişə qonağı çox olar. O, ki qala Nizami Gəncəvi kimi dünya şöhrətli bir şair ola. Hər ilin payızında Nizami poeziya bayramının keçirilməsi artıq bir ənənə şəklini almışdır. Bu bayrama respublikamızın, ölkəmizin və dünyanın müxtəlif guşələrindən Nizami sənətinin peşəkarları, şairlər, alimlər gəlirlər. Qonaqlar qədim Gəncə şəhərində Nizami adı ilə bağlı maraqlı yerlərdə - bağlar, teatrlar, muzeylərlə tanış olurlar. Ancaq bu azdır. Qonaqlar gəzdikləri, gördükləri yerlərdən xoş təəssüratla ayrılsalar da, biz azərbaycanlılar – Nizaminin mənsub olduğu, sənət, sənətkar qədri bilən bir xalq kimi yenə də özümüzü böyük şairə borclu bilirik. Bu borc Azərbaycan KP Mərkəzi Komitəsinin Nizami Gəncəvi ilə bağlı qərarında (1979) aydın göstərilmişdir.

“...Respublika Mədəniyyət Nazirliyinə, yazıçılar, arxitektorlar ittifaqlarına, Kirovabad şəhər xalq deputatları sovetinin icraiyyə komitəsinə tapşırılmışdır ki, Nizami Gəncəvinin məqbərəsini yenidən qurmaq və onun ətrafındakı ərazini abadlaşdırmaq haqqında təkliflər versinlər. Kirovabad şəhərində Nizami poeziyası evi yaradılması və o, şairin yaradıcılıq irsini və Nizamişünaslığa dair əsərləri orada cəmləşdirшдsin”.

Qərar qəbul etdikdən sonra xeyli vaxt da keçib, xeyli iş də görülüb.

Respublikanın memarı, şəhərimizin baş arxitektoru Fərman İmamquliyevin iş otağında məqbərənin yeni layihəsi ilə tanış olduq. Nizami dünyasını, Şərq tikintisinin ənənələrini, müasir dünya memarlığının nailiyyətlərini özündə birləşdirən yeni layihə gözəldir. Layihənin müəllifi Fərman müəllimdir. Maket həyati təcəssümünü tapmaq üçün darıxırdı.Yaxşı bilirdik

ki, Nizami məqbərəsinin yeni layihəsi ilə oxucular da tanış olmaq arzusundadırlar. Poeziya bayramı ərəfəsində Fərman müəllim bu tanışlığa məmnuniyyətlə razılıq verdi.

*Memar Sözü.* Oxuduqlarımı, bildiklərimi bir kənara qoyub yaddaşın tarixini vərəqləmək istəyirəm. Nizami Gəncəvinin sərdabəsini (mövcud məqbərəyə qədər) yaxşı xatırlayıram. Sinə daşı da ağ mərmərdən hazırlanmışdı. Baş daşında şairin adı, doğum və ölüm tarixi yazılmışdır. Anadan olmasının səkkiz yüz illiyi 1941-ci ildə keçiriləcəkdi. Böyük tədbirlər nəzərdə tutulmuşdu, o cümlədən şairin adına layiq məqbərə inşa edilməliydi. Müharibə bu məqsədin vaxtında həyata keçirilməsinə mane oldu.

Alman faşizmi ilə aparılan müharibə sovet xalqının qələbəsi ilə başa çatdı. Təxirə salınmış işlər yenidən vüsət aldı. Nizaminin qəbrini müvəqqəti olaraq Came məscidinə köçürdülər. Layihəsi A.Sərkisov və N.Vaxuçin tərəfindən verilmiş yeni məqbərənin tikintisinə başlandı. 1946-cı ildə başlanılan iş 1947-ci ildə hazır oldu. Şairin yubileyi də həmin ildə keçirildi.

Deyirlər, donun gödəkliyi bezin qıtlığındandır. Müharibədən təzəcə çıxmış ölkənin lazımınca vəsaiti olmadığından memarlar məqbərənin tikintisini qranitlə, mərmərlə yox, ən ucuz Zəyəm daşı ilə başa vurmuşlar. Nizaminin dünyəvi şöhrəti ilə uyuşmayan bu iş bir kəsir, bir ağrı kimi ürəyimizdə qalmışdı. Özündən qat-qat aşağıda dayanan sənətkarlara dəbdəbəli mavzoleylər, məqbərələr ucaldılmışdır.

*Müəllif Düşüncəsi.* Sənət aləmində Nizami Gəncəvinin xitabət kürsüsü hamıdan ucada durur. Biz hər dəfə onun adını tutub bu kürsüyə qalxanda, ağız dolusu hər yana car çəkəndə hamıdan ucada dayanırıq. Bu ucalığı bizə Nizami bəxş etmişdir. Bunu görən, eşidən böyük, təvazökar şairin arabir gileyini eşidirdik:

Boş təbili döyərək, hay-haray salma,
Heç kəsin səsinə biganə qalma.

Müasirliyin gücünə bax!...Bu gün üstünə hücum çəkilmiş, ətalətlə, etinasızlıqla, biganəliklə mübarizədə şair bizimlə bir cərgədə dayanır.

*Memar Sözü.* Nizami məqbərəsinin özünə yaraşan yeni layihəsi bir memar kimi məni çoxdan düşündürürdü. Nizami irsi barədə məlum qərar məni bu işdə daha da ruhlandırırdı. Mən, nəhayət, yeni məqbərənin layihəsini müzakirəyə təqdim etdim. Bu məqsədlə yaradılan komissiya mənim layihəmi bəyəndi. Yeri düşmüşkən, bir məsələni qeyd etməyi özümə borc bilirəm.

Gördüyümüz kimi KirAZ məqbərənin lap yaxınlığında tikilmişdir. Bu zavodun o vaxtki ölçüdən çıxan tozu, tüstüsü ətrafı korlayırdı. Nizami məqbərəsinin ərazisi də bundan çox ziyan çəkirdi. Bunu əsas götürərək mən təklif və israr edirdim ki, şairin məqbərəsi daha münasib yerə köçürülsün. Haqlı olaraq komissiya mənim tələbimi qəbul etmədi. Onlar göstərdilər ki, Nizami "mübahisəli" şəxsiyyətdir. Fars dilində yazması farsların iştahını artırıb. Onlar Azərbaycan xalqının böyük oğluna sahib durmağa müxtəlif bəhanələrlə cəhd göstərirlər. Nizamini Azərbaycana bağlayan dəlillərdən biri də "Gəncə" və "Şıx düzü"dür. Ona görə də Nizaminin məqbərəsinin Şıx düzündən uzaqlaşdırmaq məqsədə müvafiq olmazdı. Nizaminin xatirinə bu sözləri göz bəbəyi kimi qorumaq lazımdır. Ağıllı mülahizə qarşısında mən təklifimdə israr etmədim.

*Müəllif Düşüncəsi.* Dünyada mübahisəli şəhərlər, mübahisəli ərazilər haqqında tez-tez oxuyuruq. Mübahisəli şəxsiyyətlər heç də onlardan geri qalan problem deyil. Mirzə Şəfimizə alman, Nizamimizə fars libası geyindirməyin azarkeşləri öz mövqelərindən geri çəkilmək istəmirlər. Mübahisə sanki bizim xalqımızın, bizim tariximizin qismətinə daha çox düşüb. Dahi şair adamları öz ulusuna, elinə arxa çevirməkdən çəkindirir:

Öz qəbiləsinə asi olan şəxs,
Onunla bir yerdə yaşaya bilməz.

Nə qədər uzaqgörənliklə deyilmişdir. Xalqa qarşı çıxdınsa, onun üzünə baxa bilməyəcəksən. Torpağa xəyanət etdinsə, onun üstündə rahat gəzə bilməyəcəksən.

*Memar Sözü.*Yeni məqbərə altı hektar sahədə yerləşəcəkdir. Üç milyon manata yaxın xərc aparacaqdır. Məqbərəyə kənardan keçən yollar yaxınlaşdırılacaq. Bu yoldan məqbərəyə qədər 120 metr uzunluğunda baş xiyaban olacaq. Kənardan, tədricən yaxınlaşmaq xüsusi məqsəd güdür. Biz başımızın üstündə duran Günəşdən çox, doğan və qürub edən Günəş haqqında danışırıq. Hər iki halda Günəş bizdən daha uzaqda olur. Və biz onu dərk etməkdə çətinlik çəkmirik. Nizami də eləcə. Ona uzaqda tədricən yaxınlaşmaq lazımdır.

"Xəmsə" rəmzi olan beş rəqəmi hər yerdə ürək kimi döyünəcəkdir. Baş xiyabanda beş güllük və beş içməli su fantanları göz oxşayacaq. Xiyabanın hər iki tərəfində şairin qəhrəmanlarının tuncdan tökülmüş heykəlləri qoyulacaqdır. Yol boyu cilalı qranit daşlar üzərində Nizaminin hikmətli sözlərini oxuya biləcəyik.

Magistral yola paralel, baş xiyabanı kəsən kiçik xiyaban da öz gözəlliyi ilə diqqəti cəlb edəcəkdir. İri divar-müstəvilər üzərində Nizami mövzusu ilə əlaqəli barelyeflər əks olunacaqdır. Bu xiyabanda beş hovuz-fəvvarə ətrafı sərinlədəcəkdir. Məqbərəyə çatanda lal hovuz ziyarətə gələnlərin yadına ehtiram sükutunu salacaqdır.

Qonaqlar mərmər pillələrlə yuxarı qalxacaq. Onlar sağ və sol tərəfdə iki qapı qarşılayacaq. Məqbərənin tikintisində Şərq üslubu qabarıq verilib. Qapılardan keçəndə hamı baş əyməli olacaq. Dairə şəklində olan içlik ala-toran işığına bürünəcəkdir. Aşağıda, ortada olan müqəddəs qəbir illüziyalı işıqlar altında bərq vuracaqdır. Hamı yuxarıdan başını əyərək yalnız diqqət mərkəzində olan qəbrə nəzər salacaq. Müqəddəs qəbirlərə toxunmaq sanki onu adiləşdirir. Arxa tərəfdə tarixin qapısı kimi ağır tunc qapılar asılacaqdır. Bu qapılar yalnız xüsusi qonaqları, tədqiqatçıları və xidmətçiləri qəbrə yaxın buraxacaqdır.

Sağ tərəfdə amfiteatr şəklində (bu imkanı təbii relyef) səhnə qurulacaq. Burada şairlər şeir deyəcək, mahnı oxuyacaqlar. Bir az o tərəfdə istirahət guşəsi tikiləcəkdir.

Məqbərənin sol tərəfində milli ornamentimiz olan buta şəkilli beş səhnə düzələcək. Bu səhnələrdə aktyorlarımız şairin əsərlərindən parçalar nümayiş etdirəcəklər.

Arxada kiçik göl düzəltmək nəzərdə tutulur. Bu göldə yeddi gözəli yada salan yeddi sona üzəcəkdir.

Məqbərənin ətrafı həm də şairin bağı kimi nəzərdə tutulmuşdur. Burada çinar, sərv və meyvə ağacları əkiləcəkdir.

Radio-şərhçi qonaqlara vaxtaşırı şairin sənət dünyası barədə məlumat veriləcəkdir.

Şəhərin şərq tərəfində poeziya evi kompozisiyanı tamamlayacaqdır. Nizaminin qarşıladığı qonaqları şeir yola salacaq, şerin qarşıladığı qonaqları Nizami qəbul edəcəkdir. Gördüyünüz kimi, iş çoxdur, arxayınçılıq narahatlıq doğura bilər.

Zaman-zaman dünyanın müxtəlif guşələrindən müxtəlif irqdə, müxtəlif millətə mənsub olan zəvvarlar onun ziyarətinə gəlir və gələcəkdir.

*Müəllif Düşüncəsi.* Millətləri, xalqları fərqləndirməyən, onları aliyə və adiyə bölməyən Nizami babam təpədən dırnağa qədər beynəlmiləlçidir. O, yazılarından millətçilik iyi gələn qoca Firdovsini həmişə qınamışdır. Düzlük, ədalət, əmək – ulu Nizaminin mənəvi dünyası bundan ibarətdir.

*Memar Sözü.* Ucalığa, böyüklüyə, kamala doğru gedən yolun sirrini Nizami Gəncəvi heç kimdən gizlətməmişdir:

Nə qədər ki, dünyada alıb – verirsən nəfəs,
Sən düzlük qapısını döyməyə göstər həvəs.

ƏDƏBİYYAT

1. Əlimuxtar Muxtarov. Nizami Gəncəvi obrazı bədii ədəbiyyatda. Elm nəşriyyatı.Gəncə 2021. 206 s.
2. Xəlil Yusifli. Nizaminin lirikası. Bakı, “Elm və təhsil”, 2022. 408 s.
3. Qərib Mehdi. “ Qəhqəhə” Gəncə 1993 184 s.
4. Qərib Mehdi. “Əlim çatan ünüm yetən sənətçilər” Gəncə Ekologiya nəşriyyatı 2022. 248s.
5. Qərib Mehdi. “Dəniz olmaq üçün” Bakı. “Elm və təhsil”. 2021 300 s.
6. Qərib Mehdi. “Gül əvəzinə söz” Gəncə-2006

УДК 82-1. 512. 162

*Г. Г.Мехтиев*
*Член Союза Писателей Азербайджана*

НИЗАМИ ГЯНДЖАВИ, КОТОРОГО Я МОГУ ДОСТАТЬ И КОТОРОГО ДОСТИГАЕТ МОЙ ГОЛОС
*РЕЗЮМЕ*

*Ключевые слова*: Низами Гянджеви, гениальный поэт, искусство, Хамса, мавзолей

В статье затронуты интересные факты о нашем гениальном поэте Низами Гянджеви, который не делал различий между национальностями и народами. Были затронуты темы реконструкции мавзолея поэта всех веков Низами Гянджеви, реконструкции прилегающей территории, подготовки нового проекта, планирования крупных мероприятий и строительства мавзолея, достойного имени поэта. Сюда же включены и такие, как изменение места мавзолея. Здесь сведены воедино факты "мысль автора" и "слово архитектора".

UDC 82-1. 512. 162

*G.G.Mehdiyev*
*Member of the Union of Azerbaijani Writers*

NIZAMI GANJAVI WHOM I CAN REACH AND WHOM MY VOICE REACHES
*SUMMARY*

*Key words*: Nizami Ganjavi, Khamsa, genius poet, art, mausoleum

In the article, interesting facts about our genius poet Nizami Ganjavi, who did not differentiate between nationalities and peoples, were touched upon. The reconstruction of the mausoleum of Nizami Ganjavi, the poet of all centuries, and the reconstruction of the surrounding areas, the preparation of a new project, the planning of major events and the construction of a mausoleum worthy of the poet's name were touched upon. Controversial issues such as changing the mausoleum's location were also included here. “Thought author" and "architect's word" were brought together.

***Daxil oldu: 29.10.2023-cü il***